# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Hörmətli cənab Prezident!

Azərbaycanın Müstəqillik Günü münasibətilə İsrail Dövləti və xalqı adından ən səmimi təbriklərimi qəbul etməyinizi xahiş edirəm. Bu şərəfli bayram günündə Sizə və Azərbaycan xalqına möhkəm cansağlığı, sülh və firavanlıq arzulayıram.

Ötən həftə baş tutan səmimi və səmərəli söhbətimizdən çox sevindim. Bu cür təmaslar əlaqələrimizin sıx olduğunu və inkişaf etdiyini göstərir. Fürsətdən istifadə edərək müzakirələrimizi davam etdirmək üçün Sizi rəsmi olaraq İsrailə səfərə dəvət etmək istərdim. Sizi İsraildə qəbul etmək əsl şərəf olardı. Ümid edirəm ki, belə bir səfər İsraildə səfirliyinizin açılması üçün də bir fürsət ola bilər.

Ölkələrimiz xalqlarımız arasında sıx əlaqələrə əsaslanan tarixi tellərə malikdir. Azərbaycan sabitlik adasıdır və əsrlər boyu yəhudi xalqı üçün isti, qonaqpərvər və təhlükəsiz bir ev olmuşdur.  Burada, İsraildə Azərbaycan əsilli vətəndaşlar cəmiyyətimizə böyük töhfələr verirlər və onlar milli rəngarəngliyimizin mühüm hissəsidir. Bu iki icma xalqlarımız arasında canlı körpü rolunu oynayır, ikitərəfli əlaqələrimizi daha da gücləndirir.

Müstəqillik Günü münasibətilə Sizə bir daha təbriklərimi çatdırıram. Xalqlarımızın qeyd edəcəkləri əlamətdar günlərin yaradacağı fürsətləri səbirsizliklə gözləyirəm.

*Dərin hörmətlə,*

***İsxak HERSOQ,***
***İsrail Dövlətinin Prezidenti***

❖ ❖ ❖

Zati-aliləri!

Dost ölkənizin milli bayramı - Müstəqillik Günü münasibətilə Sizə səmimi təbriklərimi çatdırmaqdan böyük məmnunluq duyuram.

Fürsətdən istifadə edərək dost ölkələrimiz və xalqlarımız arasında mövcud olan sıx əlaqələrin bundan sonra da inkişaf etməsini arzulayıram.

Zati-aliləri, Sizə möhkəm cansağlığı və xoşbəxtlik, Azərbaycan Respublikasına və onun dost xalqına isə davamlı tərəqqi və rifah diləyirəm.

*Dərin hörmətlə,*

***Nəvaf əl-Əhməd əl-Cabir əl-SABAH,***
***Küveyt Dövlətinin Əmiri***

❖ ❖ ❖

Əs-səlamu aleykum və rəhmətullahi və bərəkətuhu!

Azərbaycan Respublikasının milli bayramı - Müstəqillik Günü münasibətilə İraq Respublikasının hökuməti və xalqı adından, şəxsən öz adımdan Sizə ən səmimi təbriklərimi çatdırıram.

Bu fürsətdən istifadə edərək ölkələrimiz və xalqlarımız arasında yaxın dostluq və əməkdaşlıq əlaqələrinin olduğunu vurğulamaq istəyirəm.

Hörmətli cənab Prezident, Sizə davamlı uğurlar, xoşbəxtlik, dost Azərbaycan hökumətinə və xalqına isə firavanlıq və tərəqqi arzulayıram.

*Dərin hörmətlə,*

***Mustafa Al-KAZIMİ,***
***İraq Respublikasının Baş naziri***

❖ ❖ ❖

Zati-aliləri!

Dost Azərbaycan Respublikasının milli bayramı - Müstəqillik Günü münasibətilə Sizə ən səmimi təbriklərimi çatdırmaqdan məmnunluq duyuram.

Sizə uzun ömür, xoşbəxtlik və uğurlar, Azərbaycan Respublikasına və onun dost xalqına isə davamlı inkişaf və rifah arzulayıram.

*Dərin hörmətlə,*

***Məşəl əl-Əhməd əl-Cabir əl-SABAH,***
***Küveyt Dövlətinin Vəliəhdi***

Azərbaycan.- 2022.- 4 iyun.- S.2.